**Seçiciləri qeydə alan komissiya üzvlərinin funksiyaları:**
**(Maddə 65)**

- Seçicilərdən təqdim olunmasını tələb edin:
  - ✓ Gürcüstan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsi/ID vərəqəsi və yaxud Gürcüstan vətəndaşlığı passportu
  - ✓ məcburi yerini dəyişmiş şəxs halında – Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi/ID vərəqəsi və yaxud Gürcüstan pasportu ilə birlikdə qaçqınlıq şəhadətnaməsini
  - ✓ Vahid seçicilər siyahısında qeydiyyatdan keçmiş Avropa İttifaqının üzvü olan dövlətin vətəndaşından Avropa İttifaqına üzv olan dövlətin passportunu
- Yoxlayın, seçici seçicilərin vahid və ya xüsusi siyahısına daxil edilmişdirmi və seçicinin şəxsi nömrəsinin seçicilər siyahısında mövcud olan nömrə ilə müqayisə edin
- Əgər seçici seçicilər siyahısına daxil edilmişdirsə, secidə markirovka edin
- Seçicilər siyahısında öz imzanızla seçki bülleten(lər)inin verilməsini təsdiq edin
- Seçicidən xahiş edin ki, seçicilər siyahısında öz soyadının qarşısında seçki bülleten(lər)i təhvil almasını imzası ilə təsdiqləsin
- Seçki bülleten(lər)inin arxa tərəfində imza atın
- Seçki bülleten(lər)ini (arxa tərəfində, onun üçün ayrılmış yerdə) qeydiyyatçının möhürü ilə təsdiq edin
- Seçiyə özünüzün imzaladığınız və qeydiyyatçının möhürü ilə təsdiq olunmuş bülleten(lər)i təqdim edin
- Seçiciyə göstəriş verin ki, gizli səsvermə kabinəsinə daxil olsun

**DIQQƏT!**

- Əgər seçici Əgər seçicinin Gürcüstan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsi/ID vərəqəsi və yaxud Gürcüstan vətəndaşlığı passportunu, məcburi yerini dəyişmiş şəxs halında – Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi/ID vərəqəsi və yaxud Gürcüstan pasportu ilə birlikdə qaçqınlıq şəhadətnaməsini , Avropa İttifaqının üzvü olan dövlətin vətəndaşından Avropa İttifaqına üzv olan dövlətin passportunu təqdim etməzsə ona bülleten(lər)ini verməməlisiniz

- Əgər seçici markirovkadan imtina edirsə, onun səsvermədə iştirak etmək hüququ yoxdur və ona seçki bülleten(lər)i verilməməlidir

- Yuxarı ətrafı olmadığına görə səsvermə prosedurunda müstəqil şəkildə (fiziki vəziyyəti) iştirak edə bilməyən seçici markirovka yoxlanışı və markirovka prosedurundan keçmir, ona seçki bülleten(lər)i verilərkən seçiciləri qeydə alan seçicilərin vahid siyahısında "Seçicinin imzası" qrafasında "Fiziki vəziyyət" adlı qeyd yazır və bunu şəxsi imzası ilə təsdiq edir

- Əgər sizin və seçicinin seçki bülleteni korlanarsa, bu barədə dərhal komissiyanın sədrinə məlumat verin və seçiciyə yeni (sizin tərəfinizdən imzalanmış və qeydiyyatçının möhürü ilə təsdiqlənmiş) seçki bülleteni verin

- Əgər vahid siyahıda seçicinin göstəriciləri tapılmasa, bu zaman qeydiyyatçı seçiciyə göstəriş verməyə borcludur ki, onun göstəricilərini təzədən yoxlamaq üçün sonuncu qeydiyyatçıya müraciət etsin. Həmin qeydiyyatçı seçicininin göstəricilərini sonradan daxil edilmiş seçici göstəricilərində, "Qeydiyyat ünvanından çıxarılmışdır" (beləsinin mövcud olduğu təqdirdə) yazısı olan seçicilər siyahısında əlifba sırası üzrə yoxlayır

- Əgər seçki məntəqəsinə vahid siyahıda "Xaricdədir" statusu verilmiş şəxs gələrsə, göstərilən şəxs səsvermədə ümumi qayda ilə iştirak edəcəkdir *(Seçki məcəlləsi –maddə 65, 184.9$^{1}$)*

**Nəzərə alın!**

✓ Tövsiyə olunur ki, qeydiyyatçılar saat 10:00, 12:00, 15:00, 17:00 və 19:00-da səsvermə prosesinə mane olmadan, siyahılarda seçicilərin imzalarını və onlar tərəfindən verilmiş bülletenlərin miqdarını (sədrə təhvil verilmiş xarab olan bülletenlər nəzərə alınmaqla) saysınlar. Əgər göstəricilər arasında fərq aşkar edilərsə, qeydiyyatçı dərhal izahat yazmalıdır, bu isə səsvermənin yekun protokollarına əlavə olunmalıdır.

✓ Qeydiyyatçı funksiyasının başqasına verildiyi təqdirdə, qeydiyyatçı siyahılarda seçicilərin imzaları və onun tərəfindən verilmiş bülletenlərin miqdarını yenidən saymağa borcludur (sədrə təhvil verilmiş korlanmış bülletenlər daxil olmaqla) və nəticələri sədrə bildirir. Uyğunluq olmadığı halda, izahat yazmalıdır. Bu izahat səsvermənin yekun protokollarına əlavə olunmalıdır.